Talıbov Nəcəf Musa oğlu

# Ekspedisiya

qanun nəşriyyatı

**Talıbov Nəcəf Musa oğlu. Ekspedisiya**
Bakı, Qanun Nəşriyyatı, 2024,  232 səh.

Janr: fiction/roman/döyüş fantastikası
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 06.02.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Redaktor: | Ziya Fazil |
| Korrektor: | Lalə Əmirova |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-890-9

© Qanun Nəşriyyatı, 2024
© Talıbov Nəcəf Musa oğlu, 2024

Hər şey "Yol kənarında piknik" əsərinin ekranlaşdırılmasından sonra başladı. Böyük bir müəllif ordusu filmi yox, hadisələrin əsasında duran stalkerlərin macəralarını davam etdirmək qərarına gəldi. Beləliklə, "S.T.A.L.K.E.R." seriyasından müxtəlif fantastik romanların yazılmasına start verildi. Bu janrın Azərbaycanda yeganə təmsilçisi Nəcəf Talıbovdur. O, oxucularını qeyri-adi bir ərazi – nüvə partlayışı nəticəsində yaranmış anomaliya zonası ilə tanış edir.

Artefaktlar, ölüm saçan silahlar, mutantlar, gözəgörünməz tələlər, fantastik qurğular oxucu üçün tamamilə yenidir. Amma əsər o qədər doğma və şirin Azərbaycan dilində yazılıb ki, bütün bu inanılmaz hadisələrin əsərin qəhrəmanı Killerin başına gəldiyinə zərrə qədər şübhə etmirsən. Əsərin ilk cümləsini oxuyan hadisələrdən ayrıla bilmir.

Bizdə döyüş fantastikası yoxdur deyənlərin cavabı bu əsərdir.

Kitab ölkəmizdə bu janrında yazılmış ilk əsərdir.

Yazıçının təsvir etdiyi hadisələr əsasında ilk Azərbaycan döyüş filminin çəkiləcəyi gün də uzaqda deyil.

*Təsvir olunan hadisələr heç zaman və heç yerdə baş vermәmişdir. İstənilən məkan və şəxs oxşarlığı tam təsadüfdür.*

## EKSPEDİSİYA

– Düz başını nişan almışam. Vurum?

– Vur!.. Niyə soruşursan? Patrona heyfin gəlir?

Atəş. Yüz metrəlikdən it zingiltisinə oxşayan səs eşidilir.

– Düz alnından!.. Gözünüz oğullar görsün!

Malış tüfəngi blindajın kənarına söykəyib yanımıza gəldi, kətil əvəzinə istifadə etdiyimiz tənəkə patron qutusunun üstündə əyləşib çaydandan bir stəkan çay süzdü. Onun sağ tərəfində oturan Ağsaqqal əlini bir həftədən artıq qırxılmamış çənəsinə çəkə-çəkə soruşdu:

– Nə oldu, mənim balam, yoruldun? Bu gün neçəsini vurmusan?

Ağsaqqalın ləqəbi də elə “Ağsaqqal”dır. Bilmirəm bu qoca buraya necə düşüb... Saşoku da, Vasonu da, Karlosu da, Tırtınbayı da, məni də ona görə seçiblər ki, bizim hamımızın hərbçi keçmişimiz olub və ya nə vaxtsa xüsusi hazırlıq keçmişik. Həbsxanada keçirdiyimiz bir neçə

il isə səhhətimizə və boy-buxunumuza elə də ciddi zərər vurmayıb. Yaşımız da 35-dən çox deyil. Bəs bunu necə seçiblər? Düzdür, elə də çox yaşı yoxdur, 55-ə hələ çatmayıb, ancaq boy-buxunlu deyil, bədən quruluşu da, yumşaq desək, Herakla oxşamır. Di gəl ki, öz təcrübəmdən bilirəm, onda olan hiyləgərlik on adama bəs eləyər. Şirin dili isə ilanı oriyental rəqs etdirə-etdirə yuvadan çıxardar.

– Səkkizincidən sonra saymadım. – Malış cavab verdi.

Malış burada təzədir. Srağagün gətiriblər. Quqanın əvəzinə. Quqa isə... Ümid eləmək olar ki, hələ sağdır. Ancaq haradadır? – Allah bilir. Digər tərəfdən də, nəyimizə lazımdır... Özü başa düşməli idi ki, müftə pendir ancaq siçan tələsində olur. Gərək kəlləsini işlədərdi...

Malış kimiləri isə, bütün təzə gələnlər təki, neçə illik həbsxana həyatından sonra birbaşa təbiətin qoynuna, – bir az radiasiya olsa da, – kollektivə düşəndə əvvəlcə bir az özlərini itirirlər, bu kollektiv ən azı iyirmi beş il həbs cəzası almış cinayətkarlardan, üzr istəyirəm, şəxslərdən ibarət olsa da. Rejim yox, təkadamlıq kamerada deyilsən, nəzarətçi dəqiqədə bir qapıdakı gözlükdən baxmır, "kirvələr" zəhləni tökmür və sair... Ancaq təzələri şoka salan bu sərbəstlik, təbiət və kollektiv deyil. Onları təəccübləndirən bu şəxslərin yerləşdiyi blindajda müxtəlif markalı odlu silahların olmasıdır... Pulemyot, avtomat, karabinlər... Patron da ki, saysız-hesabsız... Şəxsi

təcrübəmdən bilirəm... Özüm elə təəccüblənmişdim ki... Ancaq bu, gör nə vaxt olub.

Malış da, mənim kimi, küncə söykədilmiş karabinləri, lüləsi qərbə yönəldilmiş qədimi, amma saat kimi dəqiq işləyən "Deqtyaryov" pulemyotunu, qundağı cızıq-cızıq olmuş AK-47 avtomatlarını, divarın dibində qapağı açıq, içi dolu tənəkə patron qutusunu görəndə, təbii ki, çaşdı.

Həmişəki kimi, Ağsaqqal bu uşağın ürəyindən keçənləri o dəqiqə duydu və xəbərdarlıq etdi:

– Oğul, tüfəngi o tərəfə tuşlama.

"O tərəf" – bizim blindajdan arxadakı müdafiə xəttində olan beton atəş nöqtəsidir. Ancaq yekəbaşlıqları ilə fərqlənən bütün təzələr, atəş açmasalar da, heç olmasa, karabini "o tərəfə" tuşlamaqla, ilk növbədə, həbsxanada olduqları müddətdə ürəklərində yığılıb qalmış kin-küdurəti onları bura gətirənədək yolda bir-iki dəfə təpikləmiş Alyans əsgərlərindən çıxmaq istəyirlər. Bu mənada Malış da istisna olmadı – yaxındakı karabini götürüb "o tərəfə" çevirmək istədi. Ancaq Tırtınbayın təpiyi az qala onun sifətinə dəyəcəkdi. Saşok isə daha sərrast təpiklə Malışı aşırdı. İki dəqiqəlik "profilaktika"dan sonra Ağsaqqal əlindəki dolçadan Malışın üzünə su çiləyə-çiləyə deyirdi:

– Sənə dedim axı... Uşaqlardan da incimə, əksinə, minnətdar ol. Əgər bu blindajdan ikinci müdafiə xəttinə tərəf bircə güllə də atılsa, bizi blindaj qarışıq iki dəqiqə

ərzində, minomyot atəşi ilə məhv edərlər. Başa düşdün, mənim qanmaz balam?

“Qanmaz bala” isə ağzının qanını əlinin dalı ilə silirdi.

– Uşaqlardan heyif çıxmağı isə heç ağlına belə gətirmə. Ona görə ki, əvvəla, onlar səni xilas etdilər, ikincisi, sən bizdən bir və ya ikimizi vura bilərsən, qalanları səni öldürərlər; üçüncüsü, əgər burada biz bir-birimizi öldürməyə başlasaq, ikinci müdafiə xəttindən yuxarılara xəbər verərlər, nəticədə bizə yemək və su gətirməzlər... Məsələn 10-15 gün... Yəni biz yarımcan olanadək. Mənim balam, axı sən ağıllı oğlana oxşayırsan, bil ki, nə sən, nə biz buradan çıxa bilmərik. Arxa, sağ, sol və qarşımız minalıdır. Üstəlik, o tərəfdəki iriçaplı pulemyotun arxasında duran debilə əmr verilib ki, birimiz kənara bir addım atsaq, xəbərdarlıq-filan eləmədən bizi güllələsin. Və əmin ol ki, bizim haqqımızda onlara elə informasiya veriblər ki, onlar bizi çox böyük məmnuniyyətlə güllələyərlər.

Malış barmağı ilə parçalanmış dodağını, sonra isə dişlərini yoxlayır, Ağsaqqal isə davam edirdi:

– Məsələn, bilirsənmi onlar sənin haqqında pulemyotçuya nə deyiblər? Ola bilsin ki, sən hansısa bir sektanın üzvüsən və milad bayramından əvvəl psixotrop vasitənin təsiri ilə 23 nəfəri kilsədəcə güllələmisən. Onların içində isə, əfsuslar olsun ki, 21-i uşaq imiş, 2 nəfər isə yaşlı müəllimə qadın olub...

Bizimkilər Ağsaqqalın fantaziyasının zənginliyinə adət ediblər. Ancaq yenə də növbəti moizəni maraqla dinləyirlər. Malış isə – bütün təzələr kimi – tez etiraz edir:

– Mən uşaq öldürməmişəm!

– Bilirəm, mənim balam, sən ümumiyyətlə, heç kəsi öldürməmisən, səni bir vicdansız alçaq şərləyib, başqa vicdansız alçaq üzünə durub, o biri vicdansız alçaq mənzilinə bıçaq və ya tapança tullayıb...

– ...Avtomat...

– ...Hə, hə, avtomat tullayıb, növbəti vicdansız alçaqlar səni tutub və nəhayət, sonuncu vicdansız alçaq sənə iyirmi beş il həbs cəzası kəsib...

– ...Vicdansız və rüşvətxor alçaq...

– Hə, hə, mənim balam, vicdansız və rüşvətxor alçaq... Nəticədə sən günahsız yerə türməyə düşübsən... İlahi, gör bizim hamımızın taleyi necə də bir-birinə oxşayır... Mənim balam, baxma mənim gözlərimə, sən mənim acı taleyimi xatırlatdın, ağlamaq istəyirəm, gözlərim yaşla dolub artıq...

Saşokla Vaso hırıldaşırlar. Ağsaqqal isə başını Malışın çiyninə söykəyib hönkürür. Artistdir köpək oğlu...

Malış özünə gəlib Ağsaqqalı kənara itələyir, ayağa durmaq istəyir. Tamaşanın növbəti səhnəsi başlayır. Ağsaqqal öz pedaqoji fəaliyyətini davam etdirir:

– Oğul...

– Mən sənin oğlun-zadın deyiləm!

– Onda qızım...

Saşokla Vasonun hırıldaşmasına biz də qoşuluruq.

– Hər nə itin küçüyü olursan-ol, mənim üçün fərqi yoxdur, bura həbsxana deyil, öz qayda-qanunu var... Həbsxana buranın yanında kurortdur! Buraya iyirmi beş ildən az həbs cəzası almış adam gəlib düşmür. İyirmi beş ili isə xırda xuliqanlığa və ya bostan oğurluğuna görə vermirlər! Sənin türməyə düşməyinin səbəbi isə heç kəsi maraqlandırmır. Eləcə də hər birimizin... Sənin günahın iyirmi beş il həbs cəzası almağındır! Bura gəlib düşməyin isə ağılsızlığındır! Elə bizim də... Burada sağ qalmağın bircə şeyə görə lazımdır – bu silahlardan birini götürüb "bu tərəfə", yəni "o tərəf"in əksinə atəş açmaq üçün! Ə, taxtabaş, soruşmaq istəyirsən ki, "Bu tərəfdə nə var?" Deyim də... – Ağsaqqal dərindən köksünü ötürür, yenə də yazıq görkəm alıb deyir: – Mənim balam, bu tərəfdə mutantlar var.

Yerdə oturmuş Malışın alt çənəsi aşağı düşür, ağzı açıq qalır, mat-mat bizi süzməyə başlayır...

– Hə, mənim balam, indi bildin hara düşmüsən? Sən ona görə buradasan ki, üstümüzə gələn mutantlara atəş açasan, biz səni ona görə öldürmək istəmirik ki, bu tərəfdən "dalğa" vaxtı minlərlə mutant üstümüzə gəlir və sənin atdığın hər güllə bizim müdafiəmiz üçün zəruridir. Bizim hamımızı bura ona görə yığıblar ki, özümüzü

müdafiə edək, mutantların ilk zərbəsini dəf edək, öləndə də əvvəlcə biz, yəni müdafiənin birinci xəttində duranlar ölsünlər. Başa düşdün, sarsaq oğlu sarsaq?

Malış yenə də yerdə oturaraq gözlərini döyür.

– Dur ayağa! – Ağsaqqalın yazıqlığından əsər-əlamət qalmır, bayaqdan ağlamsınan səsi əmr verməyə adət etmiş komandir səsinə dönür.

Malış dik atılır.

– Götür karabini!

Malış əsgərlərə tuşlamaq istədiyi tüfəngi – 7,62 mm çaplı 1930-cu il modifikasiyalı Mosin sistemli tüfəngi götürmək istəyir.

– Onu yox, öküz, o xarabdır! Sənin kimilərə həyatı başa salmaq üçün burada durur! O küncdəki SKS-i götür! Gözlərini döymə, silahdan başın çıxır, çıxmasa səni bura gətirməzdilər! Keç ortadakı atəş nöqtəsinə! Bu tərəfdə nə görsən – atəş aç! Başa düşdün? Hərəkət edən nə varsa, ona atəş aç! Bu tərəf radiasiyalı anomaliya ərazidir! Orada yaşayan hər bir canlı isə mutantdır!!! Qandın?

* * *

Malış bir qurtum çay içir. Fikirləşir. İndi suallar seriyası başlanacaq. Artıq biz – köhnələr buna adət etmişik. Təzə gələn əvvəlcə ilkin proseduru keçir, sonra